# VƏTƏN AŞİQİ - SÖZ SEVDALISI



**Şəddat CƏFƏROV**
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

İnsanlar hava ilə, çörəklə, su ilə necə qidalanıb yaşayırsa, bir o qədər də doğulduqları yerlə, yurdla bağlı olur. Böyüdükləri məkandan mənəvi güc alaraq ömürlərini başa çatdırırlar. Hər bir insanın varlığında yaşayan və heç nəylə əvəz olunmayan yurd sevgisini, xüsusilə şairlər, söz, sənət adamları ürək, könül duyğuları kimi qavrayırlar.

Mənim həyatım əzəlindən kitablarla bağlı olub. Bu o deməkdir ki, mən əməli fəaliyyətim boyu yaradıcı adamlarla təmasda olmuşam. Onların mühitində ömür yolu keçmişəm. 70-80-ci illərdə Azərbaycanın elə bir görkəmli sənətkarı yox idi ki, onunla təmasda olmayım. Belə söz-sənət adamlarından biri də Hüseyn Kürdoğlu idi. Qaynar gözləri, gülər üzü vardı. Dalğalı, sıx saçları ona xüsusi bir görkəm verir, ahəngdar danışığı ətrafında olanları, onu dinləyənləri özünə çəkirdi. O dövrdə Hüseyn Kürdoğlu bayatıları, dördlükləri ilə çox məşhur olmuşdu. Bir dəfə mətbəədə nisbətən özündən cavan olan şairlərlə birlikdə onunla görüşüm oldu. Yaxşı bir çay süfrəsi düzəldi. Orada elə qələm dostlarının xahişi ilə bir neçə bayatı söylədi. Sonra da dördlüklərə keçdi. Diqqətlə dinləyirdim. Şairin fəlsəfi məzmunlu, dinləyicinin varlığına təsir göstərmək gücündə olan şeirləri çox maraqlı idi. Dərin fikirləri asanlıqla misralara yığa bilmək istedadı vardı Hüseyn Kürdoğlunun. Doğrusu, sonra Qarabağın işğalı o yerin, yurdun sənətkarlarını çox sarsıtdı. Hüseyn Kürdoğlunun həyatı ilə bağlı acı xəbəri də çox dərin təəssüf hissi ilə qarşıladım.

Mən bilirdim ki, Hüseyn Kürdoğlunun yaradıcılığı dövrümüzün yaddaşından silinib getməyəcək. Onun əsərlərini tədqiqatçılar dərindən öyrənəcəklər. Hələ gəncliyindən üzü bəri onu şeirlərini müğənnilər ifa edir, məclislərdə oxuyurdular. Nəhayət, bir gün gəldi ki, dostum Əli Rza Xələflinin yeni kitabını çap etməli oldum: kitabın adı belə idi - *"Bir ayrılıq odu var"*. Elə vərəqləyən kimi Hüseyn Kürdoğlunun adını gördüm. Sanki bu ad məni şairi gördüyüm həmin illərə qaytardı. Doğrusu, kitabı vaxtımın məhdudluğuna baxmayaraq diqqətlə səhifələdim. Ayrı-ayrı fəsilləri, poetik duyğulanmaları gözdən keçirdim.

Əli Rza Xələfli Hüseyn Kürdoğlu ənənəsini davam etdirərək dördlüklərlə bir poema-epos yaratmışdı. Mən təklif etdim ki, əsərin janrını elə belə də qeyd edək. Təəssüf ki, müəllif o vaxt əsərin janrını yalnız poema şəklində göstərməklə kifayətləndi. Axı bu əsərdə geniş fikir sərhədləri, Hüseyn Kürdoğlunun həyatı ilə səsləşən zaman, mühit bütün əhatəliliyi ilə öz əksini tapmışdı. Kitabın redaktoru və *"ön söz"*ün müəllifi filologiya elmləri doktoru, professor Təyyar Salamoğlu, rəyçi şərqşünas, filologiya üzrə fəlsəfə doktoru Mayıl Yaqub, məsləhətçilər filologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Qəzənfər Paşayev və filologiya elmləri doktoru, professor Şirindil Alışanlıdır. Kitab çox böyük zəhmət bahasına, həm də xüsusi bir mükəmməlliklə başa gəlib. Görünür, müəllif Hüseyn Kürdoğlu obrazını işləyərkən ustadı yaxşı tanıyan məsləhətçilərlə sıx təmasda olub. Onu da qeyd edim ki, rəyçi şərqşünas Mayıl Yaqub da kitaba xüsusi təəssürat yaradan *"son söz"* yazıb: *"Dərdşünas şairin dərd abidəsi"*. *"Son söz"*ün müəllifi də Xələflinin bir dördlüyünü öz sözünə epiqraf gətirir:

***Düşüncə şum yeri, düzü əkin siz,***
***Yaxşını yaxşıca sözə çəkin siz.***
***Düzə düz deməyə gücünüz çatsın,***
***Həqiqət sarayı - evi tikin siz.***

Mən bu qeydlərimin axırında yenə də Mayıl Yaqubun hisslərə, duyğulara təsir edən *"son söz"*ünə qayıdıb münasibət bildirmək fikrindəyəm. Hələ ki, əsər haqqında bir qədər geniş və əhatəli danışmaq daha yaxşı olar.

Kitabdan aldığım ilk təəssürat əsasında annotasiya yazdım: *"Şair-publisist, tədqiqatçı Əli Rza Xələflinin "Bir ayrılıq odu var..." poema-essesində görkəmli şair-şərqşünas Hüseyn Kürdoğlunun həyatı, yaradıcılıq istiqamətləri, eləcə də mühiti və dövrü yüksək poetik ruhla təqdim və tərənnüm olunur. Əsər forma və məzmununa görə orijinaldır, bir çox poetik yenilikləri ilə diqqəti cəlb edir. Ümumiyyətlə, şair Əli Rza Xələfli ustadı Hüseyn Kürdoğlunun bədii obrazını genişliyi və əhatəliliyi ilə ədəbi irsimizdə ilk dəfə canlandırmışdır. Müəllifin daxili yanğısı, mənəvi varislik borcuna sədaqəti oxucuda məmnunluq duyğuları oyadır. Əsər bədii-poetik şərh üslubunda qələmə alınıb. Müəllif H.Kürdoğlunun ədəbi irsindən yaradıcılıqla bəhrələnmiş, əsəri dördlüklər, rübailər və digər şeir şəkillərindən, eləcə də şifahi poeziyamızın ənənəvi formalarından istifadə ilə qələmə almışdır. Həyatın dəyəri, humanizm, ideala sədaqət, hər kəsə yalnız bircə dəfə verilən ömrü mənalı yaşamaq... əsərin aşıladığı əsas keyfiyyətlərdir. Kitabın ikinci bölməsi "Ustad yanan ocaqda..." adlanır. Bu bölmə Hüseyn Kürdoğlunun həyat və yaradıcılığı haqqında ədəbi-publisistik məqalələr, düşüncələr və xatirə yazılarından ibarətdir. Burada da müəllifin canlı dili sənətə və sənətkara sevgi təlqin edir və oxucunu yaradılanın əbədi yaşarlığına inandırır"*. Bu kitab iki möhtəşəm hissədən ibarətdir. Əvvəlcə Hüseyn Kürdoğlunu, onun mühitini göstərən poema gəlir, sonra H.Kürdoğlunun yaradıcılığını, dövrünü tədqiq edən maraqlı publisistik yazılar təqdim olunurdu. Söz budur ki, Əli Rza Xələfli bütün əsəri boyu Hüseyn Kürdoğlunun həyat yoluna, yaradıcılığına vurğunluqla qələmini işlədir. Elə ilk səhifələrdəncə müəllifin yanğı ilə poeziyaya gətirdiyi duyğular oxucunu təsiri altına alır.

Qeyd edim ki, əsər Hüseyn Kürdoğlu ənənələrinə uyğun olaraq dördlüklərlə qələmə alınıb. Dördlüyün imkanları daxilində həyat, cəmiyyət haqqında fəlsəfi ümumiləşdirmələr əsər boyu oxucunun könlünü oxşayır. Kitaba görkəmli ədəbiyyatşünas alim, professor Təyyar Salamoğlu *"Dördmərtəbəli saraylarm harayı, yaxud "Bir ayrılıq odu var"ın müəllifi və qəhrəmanı"* adlı geniş və əhatəli bir *"ön söz"* yazıb. Doğrusu, professorun yazısı da əsərlə, müəlliflə və əsərin qəhrəmanı ilə bağlı çox dəyərli bir tədqiqat yazısı təsirini bağışlayır. Professor Təyyar Salamoğlu Əli Rza Xələflinin öz ustadına münasibətini bildirən bir dördlüyü *"ön söz"*ünə epiqraf gətirir:

***Dördlük sarayımı qurub tikəndən,***
***Ustadla həmdəməm yaxından, gendən.***
***Ruhumda Kürdoğlu çinarı bitib,***
***Şairi ilk dəfə gördüyüm gündən.***

Professor Təyyar Salamoğlunun *"ön söz"*ü bizə imkan verir ki, Əli Rza Xələflinin düşüncə qaynağı olan ədəbi ələqələrini nəzərdən keçirək. Professor yazır: *"50-60-cı illərdən başlanan və daha çox B.Vahabzadə, X.R.Ulutürk və M.Arazın adı ilə bağlanan vətəndaşlıq poeziyasının görkəmli nümayəndələrindən biri də Hüseyn Kürdoğludur. H.Kürdoğlu poeziyasında milli tarixi varlığın ruhunu yaşadan, bu ruhun pozulmasına və unutdurulmasına çalışan sovet rejimininsiyasətinə bütün varlığı və sənətinin gücü ilə müqavimət göstərən böyük sənət adamıdır. Vətənin ağrılı taleyi onun vətəndaşlıq düşüncəsinin baş xəttidir. Həmin xətt bu günün vətəndaşlıq poeziyasında eynən qalmaqda və aktuallığını saxlamaqdadır. Qarabağ dərdi, 20 faiz torpaqlarımızın işğalı H.Kürdoğlu yaradıcılığının aparıcı xəttini çağdaş ədəbiyyatımızın aparıcı leytmotivinə çevirir və şairin yaradıcılığının müasirliyindən soraq verir"*. Göründüyü kimi, müəllif, yəni *"ön söz"*ün müəllifi bu qeydlərdə Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün, Məmməd Arazın adlarını təsadüfi çəkmir. Çünki Xələflinin yaradıcılığında nə qədər Hüseyn Kürdoğlunun təsiri varsa, bir o qədər də Hüseyn Kürdoğlunun yaradıcılığında adları çəkilən sənətkarların ustadlıq təsiri duyulmaqdadır. Əli Rza Xələfli də ustadı kimi Qarabağ ağrısını yaşayan müəllifdir. Elə Təyyar Salamoğlu da öz qeydlərində yanğının mənbəyini doğru olaraq Qarabağ ağrıları ilə bağlayır. Hüseyn Kürdoğlu böyük söz adamı idi. O, sözün neçə qat çalarını görə bilən sənətkardır. Elə öz yaradıcılığında da sözə bələdliyi onun istedadının bütün gücü ilə parlamasına yardımçı olur.

Söz və sənət düşüncələri hər bir sənətkarın məsuliyyət hissini şərtləndirir. Təyyar Salamoğlu Hüseyn Kürdoğlu obrazını xarakterizə edərkən onun sözə necə önəm verdiyini və bu önəmin əsərdə necə əks olunduğunu bütün təfərrüatı ilə göstərir: *"Həqiqi ədəbiyyat ənənə üzərində yüksəlir, ölməzlik qazanır. H.Kürdoğlu sənəti müasir poeziyanın özül daşlarından biri kimi çıxış etməklə bərabər, onun özü və "söz"ü də tərənnüm obyektinə çevrilir. Çağdaşımız olan vətəndaş düşüncəli ziyalılarımızın - sənətkarlarımızın böyük əksəriyyəti H.Kürdoğlunun şəxsiyyəti və poeziyasında bir əzəmilik, dönməzlik və ucalıq, bitib-tükənməz vətən sevgisi, bu sevgi ilə ölümə qədər getmək əzmi görür, bu onu heyrətləndirir və sevindirir. Şəxsiyyətin və amalın ucalığı zaman-zaman poeziyanın tərənnüm obyekti olmuşdur. H.Kürdoğlu şəxsiyyəti, onun sənət məramı, vətən amalı məhz bu prizmadan böyük sənətə yol açır ki, milli varlığın tarixi xarakterindən güc alan bu amallar çağdaşımız insanın xarakterində də özünə yer etsin, vətəndaşlıq düşüncəsini, vətənin ağrıları ilə ağrımağı onun tale yoluna çevirsin. Bütün bunlarla bərabər, H.Kürdoğlunun özü və "söz"ü çağdaş sənətin böyük "Söz"ünə ona görə çevrilə bilir ki, bu günün sənətkarı onun özündə və "söz"ündə özünü görür: Özünün şəxsiyyət və sənət taleyini, özünün vətən sevgisini, vətəndaş ağrılarını - əzabını görür"*. Onsuz da bütün şairlərin yaradıcılıq yolu sözün əzabına qatlaşmaqdan keçir. Sözün əzabına qatlaşmayan söz adamları çətin ki, yaddaşda yaşaya biləcək əsərlər yarada bilsinlər.

Təyyar Salamoğlu görkəmli alimdir. Onun ədəbiyyatşünaslıq fəaliyyəti də özünəməxsus bir tədqiqat yolu ilə fərqlənir. Mən onun yaradıcılığı ilə də yaxından tanışam. Çünki Əli Rza Xələflinin *"Tənqidçinin azərbaycançılıq idealı"* kitabını da mən çap etmişəm. Məhz həmin kitabın çapı ərəfəsində professor Təyyar Salamoğlu ilə də yaxın ünsiyyətim, söhbətlərim olub. İndi onun qeydlərini oxuyarkən onun elmi, ədəbi düşüncəsi haqqında məmnunluqla danışmaq imkanını da əldən vermirəm.

Bir sözlə, Təyyar Salamoğlu hər bir sənətkarın hansı əzablardan keçdiyini yaxşı görür və elə bu səbəbdən də bu psixoloji məqamları yazıya çox maraqla, bütün əhatəliliyi ilə gətirə bilir: *"Ə.R.Xələflinin "Bir ayrılıq odu var..." poeması, fikrimizcə, məhz bu ovqatdan doğulmuş bir əsərdir. Şairlə qəhrəmanı arasındakı ruh birliyi Əli Rzanın poetik ilhamını hərəkətə gətirən, onu vulkan kimi püskürməyə sövq edən ən əsas psixoloji amildir. Şairlə qəhrəmanı arasındakı ruh birliyi Vətənin faciəli taleyinə ağrılı münasibətdən doğur. H.Kürdoğlunun da poeziyası, Ə.Rzanın da şeiri estetik düşüncə hərəkatına "qəmin poeziyası" kimi daxil olur. "Qəmin poeziyası"nın ənənəsi klassik romantik şeirdən başlanğıc götürsə də, hər iki şairin yaradıcılığında Füzuli poeziyasına bir "büt" səviyyəsində sitayiş meyli olsa da, hər iki şair klassik üslubda yazdığı şeirlərdə bu ənənəni yaşatmaq və inkişaf etdirmək əzmində olsa da, yenə də etiraf etmək lazım gəlir ki, onların poeziyasındakı kədər, qəm, ağrı motivi gerçəkliyin özündən, vətənin ağrılı taleyini şair "mən"inin öz varlığının ağrısı kimi yaşamasından gəlir"*. Hüseyn Kürdoğlunun yaradıcılıq taleyi obyektiv və subyektiv səbəblərdən qəmlə, kədərlə çox bağlıdır. Hər bir şairin həyatında baş verən psixoloji dramatik hadisə onun yaddaşında dərin iz buraxır. Şübhəsiz, Hüseyn Kürdoğlu da belə bir ağrını çəkməli olub. Üstəlik, Qarabağ taleyi də Hüseyn Kürdoğlunun həyatına daha ağır kədər ovqatı bəxş edib. Ümumiyyətlə, şair hər bir vaxt öz xalqının tale yükünü daşımalı olur. Xalqın tarixi taleyində baş verən ağrılı hadisələr, şübhəsiz, şairin də taleyində unudulmaz izlər buraxır.

Hüseyn Kürdoğlunun həyat yolu Azərbaycan xalqının tarixi taleyi ilə çox səsləşir. O, Laçında, bir az da dəqiqləşdirsək, Laçının Əhmədli kəndində dünyaya gəlib. Məlum olduğu kimi hələ Sovet hakimiyyətinin əvvəlində Zəngəzur xüsusi siyasi təzyiqlərlə Azərbaycandan alınıb, Ermənistana birləşdirilib. Bədnam qonşularımız Azərbaycandan qopardıqları ərazilərlə kifayətlənməyib XX əsrin sonunda yenidən işğalçılığa başladılar. H.Kürdoğlunun doğma kəndi Laçın da, Əhmədli də, indi şərqi Zəngəzur adlanan ərazilər də erməni faşistlərinin işğalı altına düşdü.

H.Kürdoğlu kimi qaynar təbiətli, romantik əhvallı bir şair bu cür tarixi ədalətsizliklərlə qətiyyən barışmazdı. Elə Hüseyn Kürdoğlunun həyatının faciə ilə qurtarması da, zənnimcə, bu hadisələrlə çox bağlı oldu. Doğrudur, torpaqlarımız Ali Baş Komandanın və ordumuzun gücü və iradəsi ilə işğaldan qurtuldu. Düşünürəm ki, Hüseyn Kürdoğlu kimi parlaq bir istedad sahibinin, görkəmli sənətkarın adı öz yurdunda mütləq əbədiləşdiriləcək. Əli Rza Xələflinin *"Bir ayrılıq odu var"* əsərində adı çəkilən Məcnun bulağı yenə yığnaqlar məkanı olacaq. İnsanlar o yerlərdə H.Kürdoğlunu sonsuz hörmət və ehtiramla xatırlayacaq.

*"Bir ayrılıq odu var"* əsəri Hüseyn Kürdoğlunun mükəmməl vətən aşiqi obrazını təqdim edir. Əsərin ən təsirli səhifələri Hüseyn Kürdoğlunun yurd nisgili ilə bağlıdır.

***(Davamı 11-ci səhifədə)***

# VƏTƏN AŞİQİ - SÖZ SEVDALISI

*(Əvvəli 10-cu səhifədə)*

Hər bir sənətkar üçün xüsusi əlamətlər var ki, onlar yaradıcılıqda ya ağrı, dərd, kədər, ya da fərəh, sevinc hissləri ilə təzahür edir. Bu insan həyatı üçün təbii hisslərin duyulan, başa düşülən tərəfidir. İnsan nə vaxt ağrı çəkir, onun hissləri, duyğuları necə olur ki, ağrı üzərində köklənə bilir? Bu iki cəhətdən mümkün ola bilər. Birincisi insanın yeri, yurdu, bir sözlə, ictimai dərdləri ilə bağlı olar. Bu yanaşmada Hüseyn Kürdoğlunun həyat yolu Əli Rza Xələflinin yaradıcılıq mühiti üçün kifayət qədər müvafiq xammaldır. O, özünün ədəbi qəhrəmanını xarakterizə edərkən onun dərdlərini, mənəvi mühitindəki ağrıları həsrət motivləri ilə həmahəng şəkildə yazıya gətirir. Xüsusilə, Hüseyn Kürdoğlunun yurd həsrətlisi obrazı olmağı Xələfli üçün çox münasib motivdir. Çünki elə Xələfli də Hüseyn Kürdoğlu kimi doğulub-böyüdüyü yurddan təcrid olunub. Və bu təcridin bitmək, tükənmək zamanı qeyri-məhdud müddətə görünməzdir. Ona görə də bir sənətkar kimi Hüseyn Kürdoğlunun ömrünün son çağlarında qarşılaşdığı həsrətlərin - acıların və ağrıların miqyası mənəvi xəritə kimi Xələfli tərəfindən kifayət qədər asan oxunulur. Ona görə ki, elə həmin xəritənin müəyyən sərhədləri həm də Xələflinin təbiətindən keçir.

Yaradıcılıq, söz sənətinin özünəməxsus tərəfləri, şəxsi həyatla insanın özünün fərdi hissləri ilə çox bağlıdır. Bu baxımdan yanaşma ilə Hüseyn Kürdoğlunun yaradıcılığındakı yurd ağrılarını Xələflinin söz mühitindəki dərdli məqamlarla asanlıqla uzlaşdırmaq olur. Əgər belə demək mümkünsə, bir sənətkarın mənəvi mühitindəki ağrıların davamını digər sənətkarın təbiətindəki ağrıların davamı kimi görmək olar.

Çoxları belə hesab edir ki, Əli Rza Xələflinin yaradıcılıq yolu həm də Hüseyn Kürdoğlu yaradıcılıq yolunun həm üslub, həm də mənəvi kriteriyaları baxımından davamı təsirini bağışlayır.

Bu yerdə onu da qeyd etmək olar ki, söz adamının təbiətindəki müəyyən fərəh anları da havadan gəlmir. Bu da sənətkarın yaşadığı həyatla səsləşən duyğuların nəticəsidir.

Hüseyn Kürdoğlunun yaradıcılığında kədərin və sevincin çox maraqlı və orijinal qovuşma məqamlarına rast gəlirik. Əli Rza Xələfli də *"Bir ayrılıq odu var"* poema-eposunda (bu əsəri poema-esse adlandıranlar da var, ancaq bizim zənnimizcə, əsər əhatə dairəsinə görə poema-epos janrına daha çox yaxındır) bir sənətkarın həyat və yaradıcılıq yolunun müstəvisində bir xalqın sevinc və kədər motivlərini birləşdirməyə çalışır.

Əsərdə ruh coşğunluğu yaradan, mənəvi yüksəlişə çağıran motivlər az deyil. Amma eyni zamanda əsərin əsas obrazını özündə ehtiva edən Hüseyn Kürdoğlunun simasında bir xalqın faciəsini yaşayan sənətkarın da ağrıları qədərincə görünür.

Görünür, ağrı təkcə şəxsi motiv deyil. Həm də ictimai yükdür. Bütövlükdə cəmiyyətin həll edə bilmədiyi problemlərin dərdə çevrilmiş tərəflərini özünə çəkən hissdir. Bu mənada, əsərin əvvəlində *"Müəllifdən"* adı ilə verilmiş *"Ağrıların işığında"* adlı ayrıca bir hissə ağrının nə qədər ictimai motiv daşıdığını göstərmək baxımından çox dəyərlidir. Professor Təyyar Salamoğlu həmin məqamlarla bağlı düşüncələrini belə ifadə edir: *"İndi sənətin vətəndaşlıq mövqeyini bu ağrıdan kənarda təsəvvür etmək mümkün deyil. Bu mənada poemanın "Ağrıların işığında" adlı bədii-fəlsəfi düşüncələrlə açılmasında tam bir qanunauyğunluq vardır. Sənətkarın fəlsəfi düşüncələrində ağrı insanlığı, vətəndaşlığı şərtləndirən meyar səviyyəsində ümumiləşir. Sənətkarın varlığını büsbütün bürüyən ağrı - xüsusən yurd itgisi, itirilmiş torpaqlarımızın çəkilməyən dərdləri ona bu keyfiyyəti çağdaş Azərbaycan insanının insanlığını şərtləndirən meyar kimi müəyyənləşdirməsinə psixoloji əsas yaradır. Şairin sənət ilhamının hüdudsuzluğu öz mövqeyini səmimi bir şəkildə və yüksək poetik səviyyədə ifadəyə imkan verir:*

***Təzə yarpaq göyərməz, ağac çəkməsə ağrı,***
***Sünbüllər dənə dolmaz, kəndli əkməsə ağrı.***
***Bir vətən aşiqinin qanına dolan ağrı,***
***Torpaqda qızarmasa, olacaq yalan ağrı.***

*Misralarda ifadə olunan fikirdəki fəlsəfi siqləti də, bu fəlsəfiliyin içindən boylanan böyük həyat həqiqətini də görməmək, duymamaq mümkün deyildir".* Görkəmli ədəbiyyatşünas tənqidçi Təyyar Salamoğlu fikrini ifadə üçün **"ağrını"** bütün çalarları ilə ifadə edən **"Ağrıların işığında"** adlanan hissədən gətirdiyi iki beytə əsaslanaraq öz fikrini sərrastlıqla ifadə edir. Və bununla da bizə aydın olur ki, söz adamları üçün ağrı təkcə tikan batan yerin ağrısı deyil. Cəmiyyətin ruhuna, varlığına batan tikanın ağrısıdır. Elə bu mənada, **"Bir ayrılıq odu var"** əsərinin də bütövlükdə cəmiyyətin bağrına sancılmış tikanın ağrı motivini göstərmək baxımından qələmə aldığını düşünmək olar.

Əsərin kifayət qədər mürəkkəb xətti var. Bunu başa düşmək, əsərin ayrı-ayrı epizodları arasındakı əlaqələri görmək üçün oxucunun müəyyən ədəbi-bədii hazırlığı olmalıdır. Yəni mütaliəli oxucu bu əsərin quruluşunu asanlıqla başa düşə bilər. Amma onu da qeyd etmək yerinə düşər ki, xüsusi hazırlığı olmayan oxucu üçün bu əsər kifayət qədər mürəkkəbdir.

Professor Təyyar Salamoğlu əsərin nağıl olmadığını, əsəri başa düşmək baxımından kifayət qədər mürəkkəb olduğunu müəyyən mənada etiraf edir. Biz bu etirafı onun qeydlərindən də hiss edirik. Hər halda mütəxəssis, ədəbiyyatşünas alim sıradan olan oxucu üçün bu çətinliyi bəri başdan duyur və qeydlərində də bunu müəyyən qədər diqqətə çəkir. Özü də maraqlı şərhləri və sadə, yaddaşda qalan izahları ilə. Təyyar Salamoğlu yazır: *"Poemanın kompozisiya sistemində Hüseyn Kürdoğlu obrazının yeri birincidir. Əlbəttə, bu birinciliyin özü də şərti qəbul edilməlidir. Çünki bu poemada doğma yurd, vətən obrazları da, öz ağrılı və məşəqqətli tale yolu ilə mükəmməl poetik obrazlar səviyyəsinə qaldırılıb. Yurd, vətən sevgisinə bələnən, yurd-doğma ocaq ağrısına bürünən vətəndaşınmı obrazı öndədir, yoxsa vətənin, yoxsa elə bunlar bir-birini tamamlayaraq poemanın kompozisiya sistemində yer alır? Qəti fikir demək çətindir. Ona görə ki, vətənlə vətəndaş cisim ilə can kimi ruhi vəhdətdə alınır. Sufinin ilahi varlığa can atması, onunla birləşib əbədiyyətə qovuşması kimi, dərviş xəyallı şairin içində də vətən, yurd sevgisi*




*Allah sevgisi qədər böyüyür, müqəddəsləşir və məhz bu böyüklüyü ilə müasirlərinin gözündə qeyri-adilik, ülvilik məqamı qazanır. H.Kürdoğlu poemada bu ülvilik məqamında təqdim olunur. Həm də təkcə Ə.R.Xələflinin poetik mənaladırmaları, tərənnüm və vəsfləri ilə yox, müasirlərinin H.Kürdoğlunun özünə və "söz"ünə münasibətini analitik bədii təhlilin mərkəzinə çəkməklə. Poemanın "Göz yaşı - köz yaşı" adlı hissəsində oxuyuruq:*

*Ruhumda məclis var - müdriklər bir-bir,*
*Fikir köhlənini meydana çəkir.*

***Bu misralar poemanın kompozisiya sisteminə aydınlıq gətirir, poetik sistemi bir bütöv kimi imkan verir, bədii strukturun mükəmməlliyini şərtləndirir".*** Göründüyü kimi, görkəmli alim dəqiq psixoloji müşahidə ilə müəyyən edir ki, bu əsər sadə nağıl süjeti üzərində qurulmayıb. Burada əsas xətt müəllifin düşüncə sistemi ilə bağlıdır. Yəni müəllifin mənəvi mühitindəki ədəbi obrazlar, o obrazlar ki, onlar Hüseyn Kürdoğlu ilə bağlıdır - müəyyən olunan mənəvi dəyər sistemi üzrə sıralanır və öz mövqelərini bildirirlər.

Beləliklə, biz müəllifin H.Kürdoğlu mənəvi mühitini təqdim edə bilən obrazların düşüncə aləmlərinə daxil oluruq. Onların H.Kürdoğlu və eləcə də, onun dövrü ilə bağlı düşüncələrini, eyni zamanda doğulub-böyüdüyü yer, məkanla bağlı tarixi hadisələri də bədii-poetik təsvirlərlə gözlərimizin önündən keçirirk. Professor Təyyar Salamoğlu ayrı-ayrı hissələrin adlarını xatırladır. Maraqlı bir düzüm sıralanır: *"Poemanın "Əzəldən əzəl sözüm", "Sözümün əzəli sözüm", "Dədələrdən gələn yol", "Şairin yurduna səyahət" hissələri şairin öz səsidir, H.Kürdoğlu haqqında şairin öz "söz"üdür. "İnsan-Vətən kitabı"nda akademik N.Cəfərovun, "Yurd ağrıları"nda professor Q.Kazımovun, "Göz yaşı-köz yaşı"nda müdrik Teymur Dədənin - akademik Teymur Bünyadovun səsini eşidir, sözünü dinləyirik. "Kərkükdən üzü bəri"də professor Q.Paşayev danışır, "Qardaşımdan qalan dünya"da professor Ş.Alışanlının hüznlü qardaş səsini eşidir, "Şair çörəyi yemişəm" deyən oğlu İlham Alışanlının ata həsrətini duyuruq".* Zənnimcə, kifayət qədər aydın motivlər var. Və nə qədər aydın motivlər varsa, bir o qədər də aydın obrazlar var. Biz bu poema-eposda Qəzənfər Kazımovun xatirə və düşüncələrini, akademik Teymur Bünyadovun lirik ovqatlı duyğulanmalarını Xələfli dəsti-xəttinə uyğun dördlüklərlə necə müşayiət olunduğunu müşahidə edirik.

Hər kəsə məlumdur ki, Zəlimxan Yaqub dövrümüzün görkəmli sənətkarı idi. O, özündən əvvəlki, öz müasirləri ilə bağlı poetik məqamları kifayət qədər dərindən bilən sənətkar idi. Zəlimxan Yaqub özü ədəbiyyatı özünə cəmləşdirmiş olan müntəxabat təsiri bağışlayırdı. Yəni ədəbiyyat sanki onun yaddaşında cəmlənmiş kitab idi. Elə poema-eposda da biz Zəlimxanı belə görürük. Professor Təyyar Salamoğlu həmin məqamı çox dəqiq işarələyir və yerinə görə yüksək qiymətləndirir: *"Müdrik şairimiz Zəlimxanın ruhunun səsi bizi kövrəldir:*

*Bu dünya çarxının pəri görünür,*
*Qızıl söz harda var, zəri görünür.*
*Hüseyn Kürdoğlunu başabaş bilən,*
*Böyük Zəlimxanın yeri görünür.*

*Daşqın çay üstəyəm - bərəm Zəlimxan,*
*Qurbani Zəlimxan, Kərəm Zəlimxan.*
*Könlümün qapısı, döyüldü birdən,*
*Bu gələn kim ola? - görəm, Zəlimxan.*

*Göy yandı, yer əsdi - qorxu-qada var,*
*Yanmayan sinədə hansı oda var?*
*Allahacan qalxan sözü, söhbəti,*
*Şairin dilində çağlar sədə var.*

*Bu kövrək bəndlər hər birimizi - duyğulu oxucunu Zəlimxanlı-Hüseynli dünyanın ziqzaqlarından keçirir, Sahib Abdullayevin, Ağa Laçınlının, Şuşalı Zülfüqarın xatirələr dünyasına baş vururuq".* Göründüyü kimi, professor Təyyar Salamoğlu əsərin ayrı-ayrı obrazları ilə bağlı məqamları da unutmur, amma Zəlimxanla bağlı dördlüklərin yerində və dəqiqliklə xatırlanması qəlbimizi riqqətə gətirir.

Hər birimizin ruhunda bu və ya digər dərəcədə poeziya var. Bu poeziya ayrı-ayrı obrazlarla ruhumuza hopub. Qurbani bizim mənəvi mühitimizdə bənövşəsi ilə yaşayır və demək, Z.Yaqub da bizim mənəvi mühitimizdə sevdiyi sənətkarlarla, özünün yaratdığı möhtəşəm poetik obrazlarla yaşayır.

Professor Təyyar Salamoğlu təsadüfi deyil ki, həmin hissədə əsəri oxuyarkən rastlaşdığı digər obrazları da unutmur və bizim diqqətimizə çəkir.

Sözün həqiqi mənasında bu əsərdə Qarabağın tanınmış adamları, söz-sənət adamları, bir sözlə, Qarabağ sevdalıları olan sadə adamlar haqqında maraqlı poetik parçalar var və Təyyar Salamoğlu da artıq əsərdə bədii obraz kimi görünən həmin adları xüsusi məhəbbətlə yad edir.

Əsər başdan-başa elə lirik motivlərlə süslənir ki, nə vaxtsa bu əsərin ayrı-ayrı parçalarının aşıqlarımız tərəfindən bir dastan kimi oxunacağına da inanıram. Çünki bu əsərdə qədərincə xalq ruhuna köklənmə var.

Professor Təyyar Salamoğlunun yaradıcılığı ilə mən kifayət qədər tanışam, çünki onun haqqında Ə.R.Xələflinin yazmış olduğu yaradıcılığının zəngin mühitini göstərən *"Tənqidçinin azərbaycançılıq idealı"* kitabını çap etmişəm. Həmin kitabdan mənə aydın olub ki, T.Salamoğlu Azərbaycan ədəbi mühitini ən azı son iki əsrlik zaman üçün kifayət qədər mənimsəmiş alimdir.

Ona görə də Əli Rza Xələflinin **"Bir ayrılıq odu var"** əsərinin bədii məziyyətlərini, süjet xəttini, eləcə də, kompozisiya quruluşunu başa düşmək üçün Təyyar Salamoğlunun dəyərli **"ön söz"**ünü diqqətlə oxumağı zəruri hesab edirəm.

Əlbəttə, bu əsər haqqında fikirlərimi bitmiş hesab etmirəm. Yəqin ki, imkan olduqca öz təəssüratlarımı davam etdirəcəyəm. Çox istərdim ki, görkəmli ədəbiyyatşünaslarımız, alimlərimiz bu əsər haqqında özlərinin yaradıcı münasibətlərini bildirsinlər.

Axı bu əsər kifayət qədər həm forma, həm də məzmun baxımından yenidir. Yenilik isə nə qədər mübahisəli olsa da, ruh üçün daha qiymətli qidadır.

***(Davamı var)***